**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 42

**Bakı şəhəri** "20" iyun 2012-ci il

**"Xüsusi təhlükəli infeksiyaların aşkarlanması işinin təkmilləşdirilməsi barədə"**

Respublika sanitariya-epidemioloji xidmətinin güc və ehtiyatlarından səmərəli istifadə etmək üçün xüsusi təhlükəli infeksiyaların aşkarlanması üzrə laborator müayinələrin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin xüsusi təhlükəli infeksiyalar laboratoriyası avadanlıq və ştat vahidləri ilə birgə Respublika Taun Əleyhinə Stansiyanın strukturuna daxil edilsin.
2. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin və Respublika Taun Əleyhinə Stansiyanın rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri müəssisələrin əsasnamələrində və ştat cədvəllərində müvafiq dəyişikliklər edilərək təsdiqə təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrdən irəli gələn məsələlər həll edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Oqtay Şirəliyev**